# NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILAN SÜDDÜYƏNKİMİLƏR FƏSİLƏSİNİN TAKSONOMİK SPEKTRİ

**Samirə Xudaverdiyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu,*
*skhudaverdiyeva@inbox.ru*

Süddüyənkimilər fəsiləsi örtülütoxumlu bitkilər içərisində ən çox növlə təmsil olunan fəsilələrdəndir. Buraya həyati formasına görə ağaclar, kollar, lianlar və otlar daxildir. Yer kürəsində fəsilənin 300 cinsə daxil olan 7500-dən çox növü yayılmışdır. Ərazi florasında da *Euphorbiaceae* Juss. – Süddüyənkimilər fəsiləsnin cins və növlərinin miqdarı barədə müxtəlif rəqəmlərə və fikirlərə rast gəlirik. Naxçıvan MR ərazisində fəsilənin yekun olaraq taksonomik təhlilinin öyrənilməsi məqsədilə 2016-2019 cu illərdə aparılmış tədqiqatlar və ədəbiyyat məlumatları müqayisəli araşdırıldıqdan sonra ilk dəfə olaraq ərazi üçün Süddüyənkimilər fəsiləsinə aid cins və növlərin əsas diaqnostik əlamətlərinə görə təyinedici açarlar işlənilmiş, taksonomik spektr tərtib edilmişdir. Müəyyən edilmişdir ki, ərazinin flora müxtəlifliyində Süddüyənkimilər fəsiləsi 3 fəsiləüstü, 3 triba, 2 sektor, 5 cins və 35 növlə təmsil olunur ki, bunlardan da 2 cinsə (*Acalypha* L., *Euphorbia* L.) daxil olan 4 yeni növ – *Acalypha australis* L., *A.hispida* Burm. f., *Euphorbia marginata* Pursh və bir variasiya (*E.milli* var. *splendes* (Bojer ex Hook.) Ursch & Leandri) ilk dəfə aşkar edilmişdir. *Euphorbiaceae* fəsiləsi cinslərinə daxil olan növlərin də miqdarı aydınlaşdırılmışdır. Apardığımız təhlillər göstərir ki, ərazi florasında növlər cinslər arasında eyni qaydada bölünmür. Növlərin sayına görə Süddüyən – *Euphorbia* L. cinsi 26 növlə (74,29%) üstünlük təşkil edərək, superpolimorf hesab edilir. Qalan 4 cinsin payına 9 növ (25,71%) düşür. Digər cinslərdən biri polimorf (11,43%), ikisi orta (11,43%), bir cins isə azsaylı (2,86%) hesab edilmişdir. Müxtəlif bitki qruplaşmalarının əmələ gəlməsində və inkişafında növlərinin sayı 1-2 arasında dəyişən cinslər də az rol oynamır. Lakin növ sayının, onların areal daxilində populyasiyalarının azlığı, mövcud qlobal iqlim dəyişiklikləri, getdikcə artan ekoloji, antropogen, zoogen və texnogen amillərin təsiri ciddi təhlükə yaradır. *Euphorbiaceae* fəsiləsinin növ sayına görə ən böyük cinsi olan Süddüyən – *Euphorbia* L. cinsində də ciddi nomenklatur, taksonomik dəyişikliklər və əlavələr vardır. Belə ki, *E.rhabdotosperma* Radcl. Sm., *E.armena* Prokh., *E. glareosa* Pall. ex Bieb., *E. humifusa* Willd., *E. indica* Lam., *E. marginata* Pursh, *E. milli var. spendens*, *E. virgata* Waldst. et Kit. növləri cinsə yeni daxil edilmişdir. Cinsin növ tərkibində *E.turcomanica* Boiss. – *E.granulata* Forssk., *E.isphahanica* Boiss. – *E.heteradena* Jaub. et Spach və *Chamaesyce nutans* (Lag.) Small – *E.nutans* Lag. növlərinin sinonimi hesab edilmişdir.